


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 201 (24.338)

*31 oktyabr 2023-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


## Naxçıvanda Türkiyə Cümhuriyyətinin 100 illiyi qeyd edilib







Oktyabrın 29-da Türkiyə Cümhuriyyətinin yaradılmasının 100-cü ildönümü münasibətilə Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğu tərəfindən tədbir təşkil edilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Türkiyənin Naxçıvandakı baş konsulu Asip Kaya, digər rəsmi şəxslər, mədəniyyət və ictimaiyyət nümayəndələri tədbirdə iştirak ediblər.

Tədbirdə Azərbaycan və Türkiyə şəhidlərinin xatirəsi yad edilib, qardaş respublikaların Dövlət himnləri səsləndirilib.

Baş konsul Asip Kaya Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Cümhuriyyətin 100-cü ildönümü münasibətilə xalqına ünvanladığı təbrik məktubunu oxuyub. Asip Kaya həm də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyini qeyd etdiyimiz 2023-cü ili qardaş ölkələrimiz üçün uğurlu il kimi qiymətləndirib, bu il dövlət başçılarımızın Naxçıvandakı görüşünün ikitərəfli münasibətlərin inkişafında daha bir mühüm mərhələ olduğunu diqqətə çatdırıb.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Prezident İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana ünvanladığı təbrik məktubundan sitatlar gətirərək qeyd edib ki, 100 il öncə çox çətin şəraitdə tarixi zəfər çalaraq istiqlaliyyətini əldə edən Türkiyə bu gün müasir dünya nizamında öz sözünü deyə bilən, qabaqcıl ölkələr sırasında yer alan güclü bir dövlətdir. Milli liderlərimiz Mustafa Kamal Atatürk və Heydər Əliyevin böyük uzaqgörənliklə başlatdığı və dövlət başçılarımız tərəfindən daha da inkişaf etdirilən birlik, dostluq və qardaşlıq əlaqələri bu gün ölkələrimizi qlobal müstəvidə qüdrətli edən mühüm amildir. Türkün qapısı Naxçıvan isə bu münasibətlərin inkişafında müstəsna rol





oynayır. Ölkə başçılarımızın Naxçıvan görüşündə verdiyi mesajlar da, bu mənada, qətidir. Naxçıvan qısa zamanda iki ölkə arasında önəmli nəqliyyat, logistika və enerji mərkəzinə çevriləcək.

Fuad Nəcəfli Türkiyə Cümhuriyyətinin yaradılmasının 100-cü ildönümü münasibətilə təbriklərini çatdırıb, qardaş Türkiyə xalqına rifah və firavan həyat arzulayıb, Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kayaya Şuşa Bəyənnaməsinin imzalanması zamanı çəkilən portreti təqdim edib.

Tədbirdə Cümhuriyyətin 100-cü ildönümünə həsr olunmuş marş səsləndirilib və videoçarxlar nümayiş etdirilib.

Həmçinin Baş Konsulluğun təşkil etdiyi fotosərgiyə də baxış olub.

**"Şərq qapısı"**

## Naxçıvanda "Dövlət müəssisə və şirkətlərinin fəaliyyətində maliyyə hesabatlılığı və şəffaflığın gücləndirilməsi" mövzusunda tədbir keçirilib




Oktyabrın 30-da Naxçıvanda Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə "Dövlət müəssisə və şirkətlərinin fəaliyyətində maliyyə hesabatlılığı və şəffaflığın gücləndirilməsi" mövzusunda tədbir keçirilib.

Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib, önünə gül dəstələri qoyub, dahi şəxsiyyətin xatirəsini ehtiramla yad edib.

Naxçıvan Biznes Mərkəzində davam etdirilən tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

*Ardı 2-ci səhifədə*







Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli tədbirdə çıxış edərək bildirib ki, gələn il 100 illiyini əlamətdar hadisə kimi qeyd edəcəyimiz Naxçıvan Muxtar Respublikasında bu ildən yeni idarəetmə sistemi tətbiq edilir. Muxtar respublikanın sosial-iqtisadi inkişafını hədəfləyən yeni layihələr icra olunur. Bu məqsədlə Prezident cənab İlham Əliyevin 5 iyun 2023-cü il tarixli Sərəncamı ilə “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” təsdiq olunub və icrasına başlanılıb. Dövlət Proqramında kənd təsərrüfatı, tikinti, iqtisadiyyat, energetika və digər sahələrdə mühüm layihələr həyata keçiriləcək. Ötən illərdən yarım qalmış işlər müasir innovativ yeniliklər tətbiq olunmaqla tamamlanacaq. Bu işlərin yerinə yetirilməsində hər bir təşkilatın üzərinə mühüm vəzifələr düşür.

Fuad Nəcəfli qeyd edib ki, Səlahiyyətli Nümayəndəlik Azərbaycan Respublikası Hesablama Palatası ilə geniş əməkdaşlıq edir. Muxtar respublikada bu ilin dövlət büdcəsindən səmərəli istifadə olunması və növbəti ilin büdcə layihələri üçün atılan müvafiq addımlarda qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikası Hesablama Palatasının imkanlarından istifadə olunur. İlk olaraq artıq Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyində bu istiqamətdə işlərə başlanılıb.

Səlahiyyətli nümayəndə Azərbaycan Respublikası Hesablama Palatası tərəfindən təşkilatçılığı ilə təşkil olunan tədbiri də, bu mənada, əhəmiyyətli hesab edib və bu cür tədbirlərin bundan sonra da təşkil edilməsinin faydalı olacağını bildirib.

Sonra tədbirdə Ümummilli Lider Heydər Əliyevin mənalı həyat yolundan bəhs edən qısa film nümayiş etdirilib.

Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov çıxış edərək Prezident cənab İlham Əliyevin maliyyə sektorundakı nizam-intizamın möhkəmləndirilməsi ilə bağlı verdiyi tapşırıqların şəffaflıq və hesabatlılığın artırılmasındakı əhəmiyyətindən bəhs edib. Vüqar Gülməmmədov dayanıqlı inkişafın təmin olunmasında mühüm rolu olan şəffaflıq və hesabatlılığın son illərdə müxtəlif sahələrdə, o cümlədən dövlət maliyyəsinin idarəedilməsi üçün hazırlanan sənədlərin əsas hədəflərindən biri olaraq qəbul edildiyini vurğulayıb, həmçinin Hesablama Palatası tərəfindən Naxçıvanda maliyyə hesabatlılığının təmin edilməsinə töhfə verilməsinin maliyyə intizamının yüksəldilməsinə də səbəb olacağını qeyd edib.

Vurğulanıb ki, hüquqi bazanın təkmil olmaması maliyyə intizamı baxımından bir sıra problemlər ilə nəticələnir. Dəstək vermək istədiyimiz sahələrdən biri də məhz Naxçıvan Muxtar Respublikasının büdcəsinin hüquqi tənzimlənməsi ilə bağlıdır. Hesab edirik ki, bu istiqamətdə Hesablama Palatasının təkliflərini ən yaxın aylarda təqdim edə bilərik. Hesablama Palatası tərəfindən 2023-cü ildə aparılmış auditlər də problemlərin bir hissəsinin hüquqi baza ilə bağlı olduğunu göstərsə də, audit olunan qurumların hər birində daxili nəzarət elementlərinin zəif olduğu xüsusi qeyd edilməlidir. Hesabat ili ərzində 9 audit keçirmişik. Bu auditlərin 7-nin nəticələri artıq rəsmiləşib. Bəziləri barədə mətbuatda açıqlamalar vermişik.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

**“Şərq qapısı”**

## Asip Kaya: *“Türk dünyası bir araya gələrək çox böyük bir birlik yaradacaq. Bunun da yolu Naxçıvandan keçir”*



***Naxçıvanda Türkiyə Cümhuriyyətinin 100 illik yubileyi qeyd olunub. Yubiley tədbirindən sonra Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya qardaş ölkənin keçdiyi tarixi inkişaf yolu, Türkiyə-Azərbaycan əlaqələrinin inkişafı ilə bağlı “Şərq qapısı” qəzetinə müsahibə verib:*** – Türkiyə tarixi üçün ən önəmli günlərdən birini – Cümhuriyyətimizin yaranmasının 100 illiyini qeyd edirik. Mustafa Kamal Atatürkün öndərliyi ilə böyük bir mücadilə verən türk xalqı qurtuluş savaşını qazandı və müstəqilliyini elan etdi. Atatürk o dönəmdə dövlətin strukturu məsələsində çox düşündü və türk xalqı üçün ən gözəl, ən uyğun idarəçiliyin Cümhuriyyət olduğuna qərar verdi. 29 oktyabr 1923-cü ildə Türkiyə Cümhuriyyət elan edildi. O gündən bəri Atatürkün qurduğu təməllər üzərində Türkiyə sürətlə inkişaf etdi, böyüdü. Bu gün istər bölgədə, istərsə də dünyada nüfus və söz sahibi olan bir dövlət səviyyəsinə çatıb. Bu xoşbəxt günümüzdə azərbaycanlı qardaşlarımız bizi yalnız buraxmadılar. Bakıda da çox böyük tədbirimiz keçirilir. Burada da Prezidentin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli başda olmaqla bütün dövlət işçiləri bu gün bizim sevincimizi paylaşdılar. Hər birinə təşəkkür edirəm.

Baş konsul qeyd edib ki, Türkiyə və Azərbaycan tarix boyunca hər zaman bir-birini dəstəkləyib. Bunun ən son örnəyini Qarabağ savaşında, Türkiyədəki zəlzələlərdə gördük. Sevincdə və kədərdə bir millət olmanın xoşbəxtliyini yaşadıq. Türkiyənin güclənməsi Azərbaycanın güclənməsi deməkdir. Bizim 100-cü ilimiz, əslində, Azərbaycanın da 100-cü ilidir. Cənab Prezidentimizin də söylədiyi kimi bu əsr türk əsri olacaq. Türkiyə və Azərbaycanın öndərliyində Türk dünyası bir araya gələrək çox böyük bir birlik yaradacaq. Bunun da yolu Naxçıvandan keçir. Naxçıvan önəmli bir dəhlizdir. Zəngəzur və ya başqa bir dəhlizlə Azərbaycan Naxçıvan vasitəsilə Türkiyə ilə birləşəcək və Türk dünyası ayağa qalxacaq. Naxçıvan burada önəmli bir rol oynayacaq. Naxçıvanın gələcəyi çox parlaqdır. Burada Baş konsul olaraq vəzifəmi yerinə yetirməkdən çox məmnunluq duyuram. Türkiyə və Azərbaycan əlaqələrinin bundan sonra daha da güclənməsi üçün səylə çalışacağıq.

**✍ Nail ƏSGƏROV**

## Naxçıvan Muxtar Respublikasının əhatə dairəsində olan dövlət müəssisə və təşkilatlarında 9 audit aparılıb



“Bu il Hesablama Palatası tərəfindən Naxçıvan Muxtar Respublikasının əhatə dairəsində olan dövlət müəssisə və təşkilatlarında 9 audit aparılıb”.

Bunu Naxçıvanda Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə “Dövlət müəssisə və şirkətlərinin fəaliyyətində maliyyə hesabatlılığı və şəffaflığın gücləndirilməsi” mövzusunda keçirilən tədbirdən sonra ***Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov*** jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, auditlərin nəticələri bizim tərəfimizdən ümumiləşdirilərək ümumi xarakterli nöqsanların hamısını qruplaşdırmışıq: “Bu qruplaşdırılmış nöqsanların bizə bəzi nöqsanların hüquqi bazanın təkmil olmamasından irəli gəldiyini deməyə əsas verir. Və hüquqi bazanın təkmil olması dövlət büdcəsinin layihəsi və icrası dövrlərini tam şəkildə əhatə etdiyindən bununla bağlı Naxçıvan Muxtar Respublikasının rəhbərliyi ilə hüquqi bazanın təkmilləşməsi ilə bağlı təkliflərimizi vermək fikrimiz var. Bu təkliflər primitiv xarakter daşıyacaq. Və dövlət büdcəsinin həm layihələndirilməsi, həm də icrası dövrü ərzində büdcənin daha təkmil olmasına töhfəsini verməlidir. Auditlərin nəticələri göstərir ki, onları bir neçə qrupa bölmək olur. Burada qurumların rəhbərlərinin işinə məsuliyyətli yanaşması, bilik və bacarıqlarının təkmil olmaması və bununla bağlı onların idarə etməsindən də irəli gələn bəzi məsələlər var ki, bu daha çox vəsaitlərin idarə edilməsi və vəsaitlərin hesabat dövrü ilə bağlıdır. Bizim də əsas vəzifəmiz dövlət qurumlarının dövlət vəsaitlərinin istifadəsi ilə bağlı məsuliyyətini artırmaqdan ibarətdir. İki nəzarət tədbirimiz tam yekunlaşmayıb. Onlar növbəti ayın sonuna qədər tam şəkildə yekunlaşacaq. Və ictimaiyyətə geniş şəkildə məlumatlar veriləcək”.

**✍ Ceyhun MƏMMƏDOV**

## FAO Naxçıvanda!

*BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycandakı nümayəndəsi Muhammad Nasar Hayat və onun rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvana səfər edib. İşgüzar səfər çərçivəsində açılış tədbiri keçirilib.*

Tədbirdə FAO-nun Azərbaycandakı nümayəndəsi Muhammad Nasar Hayat çıxış edib. Çıxışda qeyd olunub ki, Azərbaycan FAO-nun ən önəmli tərəfdaşlarından biridir və bu əməkdaşlığı inkişaf etdirmək istiqamətində çox səmərəli işlər görülür. Kənd təsərrüfatı məhsulları istehsalı baxımından Azərbaycanın ən cəlbedici bölgələrindən biri olan Naxçıvan Muxtar Respublikasını xüsusilə qeyd etmək lazımdır. FAO Azərbaycan ofisi muxtar respublikada kənd təsərrüfatı korperativlərinin yaradılmasında, gənc və qadın fermerlərin təşəbbüslərinin dəstəklənməsi məqsədilə burada bir sıra layihələr həyata keçirməyi planlaşdırır, bu layihələrin digər regionlarımızda keçirilən layihələr kimi uğurlu olacağı gözlənilir.



Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Elşad Əliyevin qonaqlara Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin salamlarını çatdırıb və onları Naxçıvanda görməkdən böyük məmnunluq duyduğunu bildirib. Qeyd olunub ki, FAO böyük təşkilatdır. Onun dünyada, həmçinin Azərbaycanda həyata keçirdiyi layihələr hər zaman uğurla nəticələnib. FAO Azərbaycanda milli, regional və qlobal səciyyəli layihələr həyata keçirir.

Diqqətə çatdırılıb ki, bu gün Naxçıvanda kənd təsərrüfatı sahəsində bir sıra layihlərin həyata keçirilməsinə ehtiyac var. Kənd təsərrüfatı sahəsində elmi-tədqiqata əsaslanan yeniliklərdən bəhrələnməyə, bu gün Naxçıvan fermerlərinin torpaq sahibkarlarının və digər sahibkarlıq subyektlərinin FAO-nun dəstəyinə ehtiyacı var. Heç şübhəsiz ki, FAO-nun Naxçıvanda fəaliyyəti kənd təsərrüfatının inkişafına uğur gətirəcək, bu sahədə mühüm yeniliklərə nail olunacaq.

Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Xəyalə Dadaşova çıxışında qeyd edib ki, FAO BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatıdır. Dünyanın bir çox ölkələrində, o cümlədən Azərbaycan Respublikasında artıq bir neçə layihə həyata keçirib. Həmin layihələr çərçivəsində xüsusilə kənd təsərrüfatının inkişafında uğurlu nəticələr əldə olunub. FAO-nun Naxçıvan Muxtar Respublikasında həyata keçirəcəyi layihə kənd təsərrüfatının inkişafında həm fermerlərin, həm kadrların yetişməsində, o cümlədən bitkiçilik və heyvandarlıq sahəsində uğurlar əldə olunacaq.

Tədbirdə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Azərbaycan Respublikasındakı Nümayəndəsinin müavini Bariz Mehdiyevin də çıxışı olub. Bildirilib ki, FAO-nun Naxçıvanda həyata keçirəcəyi layihələrin icrası burada ərzaq və kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan kiçik və orta sahibkarların məhsuldarlığını artıracaq və bazara çıxışını asanlaşdıracaq.

Tədbirdən sonra ***FAO-nun Azərbaycandakı nümayəndəsi Muhammad Nasar Hayat*** “Şərq qapısı” qəzetinə müsahibə verib: – Əvvəlcə məlumat vermək istəyirəm ki, Azərbaycanın ən gözəl bölgələrindən biri olan Naxçıvanda olmaqdan böyük məmnunluq hissi keçirirəm. Məni Naxçıvana gətirən əsas məqsəd Azərbaycanın bu gözəl bölgəsində kənd təsərrüfatı sahəsinin inkişafına xüsusi töhfə verməkdir. Burada olmaq bizim üçün ona görə vacibdir ki, Naxçıvandakı ehtiyacları daha yaxşı başa düşək, həmçinin kənd təsərrüfatı sahəsindəki proseslərlə yaxından tanış olaq. Naxçıvanın sosial-iqtisadi strategiyasına uyğun ayaqlaşaq. Biz buraya gələndə Naxçıvan Muxtar Respublikası kənd tə-



sərrüfatı naziri vəzifələrini icra edən Xəyalə Dadaşova ilə görüşdük. Həmçinin sabah Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli ilə görüşməyi planlaşdırırıq. Bizim buraya səfərimizin əsas məqsədlərindən biri də odur ki, biz burada şəhərətrafı və kənd yerlərindəki icmaları ziyarət edək, onlarla görüşüb, onların kənd təsərrüfatı sahəsinin inkişafı ilə bağlı nə düşündüklərini öyrənək. Ümid edirik ki, fermerləri və kənd yerlərindəki icmaları dəstəkləməklə onlara lazım olduğu ehtiyaclarında yaxından köməklik göstərəcəyik.

**✍ Gülcamal TAHİROVA**

*Ötən ilin dekabrından etibarən muxtar diyarda tətbiq olunan yeni idarəçilik üsulu – səlahiyyətli nümayəndəlik institutunun tətbiqindən ötən müddət ərzində müxtəlif sahələrdə həyata keçirilən tədbirlər, xüsusilə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın uğurlu icrası öz real bəhrələrini verməkdədir. Təkcə 2023-cü ilin yanvar-avqust aylarında muxtar respublikada 47-si dövlət, 407-si qeyri-dövlət olmaqla, 454 daimi iş yerinin açılması faktı buna əyani sübutdur. Təkcə ötən ayın ümumi mənzərəsinə nəzər salsaq, muxtar respublikada ən müxtəlif sahələrdə dinamik inkişafın, dövlət siyasətinin uğurlu icrasından irəli gələn hərtərəfli tərəqqinin şahidi olarıq.*

İcmal

# Modern idarəetmə üsulunun inkişaf və tərəqqi bəhrələri

## Muxtar respublikanın ötən aykı ümumi mənzərəsi bu reallıqları inikas etdirir



### Hər bir ölkənin hərbi qüdrəti onun hərbi-siyasi qətiyyətini, iradəsini təcəssüm etdirir

Azərbaycan Vətən müharibəsindəki Böyük Zəfərdən sonrakı dövrdə də dünyada sülhsevər siyasət həyata keçirməklə bərabər, ordumuzun təkmilləşdirilməsinə, müasir silahlanma, yeni hərbi texnika ilə təchiz olunmasına, döyüş peşəkarlığının yüksəldilməsinə də xüsusi diqqət göstərməkdədir. Son lokal antiterror tədbirləri ordu quruculuğunun əhəmiyyətliliyini bir daha təsdiq etdi. Bu da bir reallıqdır ki, ölkənin hərbi qüdrətinin gücləndirilməsində xüsusi strateji əhəmiyyət kəsb edən Naxçıvanda da həssaslıqla yanaşılır.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli sentyabrın 5-də Əlahiddə Ümumqoşun Ordunun Komanda Məntəqəsinə gələrək məntəqənin fəaliyyəti ilə tanış olub. Komanda Məntəqəsinin Döyüşü İdarəetmə Mərkəzində döyüş hazırlığının, təlimlərin gedişatı, eləcə də Ermənistan Respublikasının silahlı qüvvələrinin bölmələri ilə təmas xəttində cari vəziyyət haqqında məlumat verilib. Sonra səlahiyyətli nümayəndə Əlahiddə Ümumqoşun Ordunun qərargahına gələrək yaradılmış şəraitlə tanış olub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli sentyabrın 9-da Əlahiddə Ümumqoşun Ordu Qərargahına gələrək Ermənistan Silahlı Qüvvələri ilə təmas xəttində yaranmış gərginliklə bağlı qarşı tərəfin təxribat xarakterli fəaliyyətləri nəticəsində atəşkəs rejiminin pozulması halları və görülmüş tədbirlərlə maraqlanıb. Səlahiyyətli nümayəndə həmin gün Əlahiddə Ümumqoşun Orduda ziyarətdə olan Türkiyənin ASELSAN şirkətinin genel müdiri Ahmet Akyolu ilə görüşüb. Görüş zamanı birgə fəaliyyət və mövcud layihələr haqqında məlumat verilib, gələcəkdə əməkdaşlığın inkişafı və daha da genişləndirilməsi məqsədilə fikir mübadiləsi aparılıb.

2020-ci ildə – Vətən müharibəsində cəmi 44 gün ərzində Tarixi Qələbədən sonra hələ də öz rəzil məğlubiyyəti ilə barışmaq istəməyən mənfur ermənilər üçtərəfli sülh Bəyannaməsinə əməl etməkdənsə, Azərbaycanın öz torpaqlarında terror yuvası qurub nəinki ölkəmizə qarşı, regional sülh və sabitlik üçün ciddi təhlükə mənbəyi yaratmışdılar. Azərbaycan öz vətəndaşlarının təhlükəsizliyini, konstitusiya quruluşunu qorumaq məqsədilə lokal antiterror əməliyyatları keçirdi, erməni seperatçılarının kökünü birdəfəlik kəsərək suverenliyini bərpa etdi. Xalqımız ən sürətli, nizamlı şəkildə təşkil olunmuş, 24 saatdan da az bir vaxtda düşmən qüvvəsini diz çökdürən lokal antiterror tədbirlərində də şəhidlər verdi.

Sentyabrın 19-da qanunsuz erməni silahlı birləşmələri tərəfindən törədilən təxribat-diversiya terror aktı nəticəsində həlak olmuş Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin polis serjantı Əsgərov Ələsgər Zakir oğlunun cənazəsi Naxçıvana gətirilib. Sentyabrın 20-də Naxçıvan Beynəlxalq Hava Limanında polis serjantı Ələsgər Əsgərovun cənazəsinin qarşılanma mərasimi olub. Səlahiyyətli nümayəndə polis serjantı Ələsgər Əsgərovun ailə üzvləri ilə görüşərək başsağlığı verib.

Tarixi Qələbə ilə başa çatan Vətən müharibəsi zamanı respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, ölkənin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimiz, qazilərimiz milli qürur mənbəyimiz, unudulmayacaq vətənpərvərlik məktəbidir. Prezident cənab İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli Sərəncamına əsasən təsis edilən Anım Günü – sentyabrın 27-də ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikamızda da böyük ehtiramla qeyd olunur. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbdə 27 sentyabr – Anım Gününə həsr olunan dərsdə iştirak edib. Məktəbin IX[a] sinfinin şagirdləri Fuad Nəcəflinin 27 sentyabr – Anım Günü ilə bağlı suallarını cavablandırıblar.

Azərbaycanın dövlətçilik tarixindən və Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin hər iki dövründə ölkəmizin inkişafındakı xidmətlərindən, ötən əsrin 90-cı illərinin əvvəllərində Naxçıvanda həyata keçirdiyi xilaskarlıq missiyasından danışıb. Müzəffər Ali Baş Komandanımız, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsindəki Tarixi Qələbəmizdən, aparılan uğurlu lokal antiterror tədbirləri sayəsində suverenliyimizin bərpa olunmasından bəhs edən səlahiyyətli nümayəndə vurğulayıb ki, biz bu uğurları şəhidlərimizə və qazilərimizə borcluyuq. Onlar bizim qürur mənbəyimizdir. ***"Siz olduqca şanlı bir dövr yaşayırsınız. Sizin gəncliyiniz elə bir dövrə təsadüf edir ki, bu dövr Azərbaycanın yeni yüksəliş dövrüdür. Biz ərazi bütövlüyümüzü bərpa etmişik. Artıq qarşımızda əvvəllər yaranan maneələr yoxdur. Bundan sonra daha da inkişaf etməli, elmdə, iqtisadiyyatda, sosial həyatda tərəqqiyə yol açacaq addımlar atmalıyıq. Bu vəzifə də sizin üzərinizə düşür. Çalışın ki, şəhidlərimizi və qazilərimizi heç vaxt unutmayasınız və unutdurmayasınız"***, – deyən Fuad Nəcəfli müəllim və şagirdlərə təhsildə uğurlar arzulayıb.

### Sosial-iqtisadi inkişaf dövlətin iqtisadi-siyasi sütunu, dünyəvi nüfuzunu təşkil edən əsas amildir

Ümummilli Liderin rəhbər vəzifələrdə çalışdığı bütün dövrlərdə aqrar sektorun inkişafı iqtisadi islahatların başlıca hədəfinə çevrilib. Xüsusilə müstəqillik illərində ölkəmizdə ilk dəfə torpaq islahatına Ulu Öndərin rəhbərliyi ilə Naxçıvanda başlanıb, özəl mülkiyyətə əsaslanan aqrar münasibətlərin təməli qoyulub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin kənd təsərrüfatını yerli sektorun prioritet istiqaməti elan etməsindən sonra Azərbaycan Respublikasında, o cümlədən muxtar diyarımızda aqrar sahə sürətlə inkişaf edib. Sentyabrın 8-də "Heydər Əliyevin kənd təsərrüfatının inkişafında rolu" mövzusunda tədbir keçirilib. "Heydər Əliyev İli" çərçivəsində keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli çıxış edib.

Muxtar respublikanın kənd təsərrüfatının iqtisadiyyatın və əhalinin məşğulluğunun əsas sahəsi olduğunu diqqətə çatdıran Fuad Nəcəfli bildirib ki, ötən 30 ildə Naxçıvanda digər sahələr kimi, kənd təsərrüfatı sahəsində də dövlətin yaratdığı imkanlardan və göstərdiyi dəstəkdən səmərəli istifadə olunmayıb, sui-istifadə hallarına yol verilib. Cari ilin ötən dövründə bu sahədəki mövcud vəziyyət təhlil edilib, problemlər müəyyənləşdirilərək həllinə başlanılıb, torpaqların su təminatı ilə bağlı məsələlər diqqətdə saxlanılıb. Çıxışda bu istiqamətdə görülən tədbirlərdən danışılıb. Qeyd olunub ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üzrə Dövlət Proqramı"nda kənd təsərrüfatının inkişafı ilə bağlı da mühüm vəzifələr müəyyənləşdirilib. Dövlət Proqramı çərçivəsində əkinçilik və heyvandarlığın mütərəqqi metodlarla inkişaf etdirilməsi, laboratoriya sistemlərinin yaradılması, heyvanların cins tərkibinin yaxşılaşdırılması, ənənəvi baramaçılığın və ipəkçiliyin inkişafı, Naxçıvan üçün spesifik ailə təsərrüfatı məhsullarının regionlaşdırılması və təşviqi konsepsiyasının hazırlanması, orqanik məhsulların müəyyənləşdirilməsi və təbliği, xarici bazara ixracının təşkil edilməsi əsas hədəflərdəndir.

Tədbirdə "Orqanik Naxçıvan" loqotipi təqdim olunub, orqanik Naxçıvan məhsulları ilə bağlı animasiyalı video nümayiş etdirilib. Bədii hissə ilə davam edən tədbirin ardınca Naxçıvanda qablaşdırılmış orqanik məhsullara baxış keçirilib.

Naxçıvanın enerji təhlükəsizliyini möhkəmləndirməyi və onu "yaşıl enerji zonası"na çevirməyi hədəfləyən yeni inkişaf mərhələsi həm də Azərbaycan-Türkiyə enerji əməkdaşlığında yeni səhifədir. Naxçıvan şəhərində Azərbaycan-Türkiyə III Enerji Forumu və "Naxçıvan – Yaşıl Enerji Zonası" Beynəlxalq Konfransı keçirilib. Tədbirin açılış mərasimində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, energetika naziri Pərviz Şahbazov, Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) iqlim dəyişikliyi və ətraf mühit naziri Mariam Mohammed Almheiri çıxış ediblər. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli iki ölkənin qardaşlıq və müttəfiqlik münasibətlərinin regionda sabitlik və enerji təhlükəsizliyinin təminatında əhəmiyyətindən bəhs edib. Forum və konfransın Naxçıvanda keçirilməsinin muxtar respublikanın "yaşıl enerji zonası"na çevrilməsi prosesinə töhfə verəcəyini qeyd edib: ***"Yaşıl enerji" layihələrinin reallaşdırılması yaxın illərdə Naxçıvanı enerji ixracatçısına çevirəcək və onun strateji əhəmiyyətini daha da artıracaq"***. Yekunda "Azərbaycan-Türkiyə III Enerji Forumunun Protokolu", həmçinin "Naxçıvan üzərindən "Türkiyə-Azərbaycan Qarşılıqlı Əlaqə" layihəsinin icrası ilə əlaqədar 2023-2025-ci illərdə "TEİAŞ" və "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin birgə həyata keçirəcəyi Yol Xəritəsi", "Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpaolunan Enerji Mənbələri Dövlət Agentliyi və "A-Z Czech Engineering" MMC arasında "Azərbaycan Respublikası ərazisində bərpaolunan enerji mənbələri üzrə layihələrin icrası, həmçinin Naxçıvan Muxtar Respublikasında gücü 500 MVt-a qədər olan günəş elektrik stansiyasının tikintisi, eləcə də elektrik enerjisinin Türkiyəyə ixracı üçün ötürücü şəbəkənin qurulması imkanlarının araşdırılması üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu" və "Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpaolunan Enerji Mənbələri Dövlət Agentliyi və "ACWA Power" şirkəti arasında "Batareya Enerji Saxlama Sistemi (BESS) layihəsi və 200 MVt quruda külək layihəsi üçün tədbirlər təqvimi (Yol xəritəsi)" imzalanıb.

### Gələcək inkişaf yüksəkixtisaslı mütəxəssis hazırlığından başlayır

İstənilən sahədə qazanılan uğurların əsasını ölkənin kadr potensialı, yüksəkixtisaslı mütəxəssis hazırlığı təşkil edir. Bu mənada, Naxçıvan Dövlət Universiteti bu gün təkcə Azərbaycan ali təhsil ocaqları arasında deyil, dünya təhsil sistemində layiqli yerlərdən birini tuta biləcək, yeni model struktura malik qabaqcıl təhsil ocağına çevrilir. SAT və IELTS mərkəzlərinin, ingilis dilində ixtisasların yaradılması universitetdə xarici dil mühiti formalaşdırıb. Bütün bunların nəticəsində Naxçıvan Dövlət Universitetinə maraq daha da artıb. Təkcə yeni tədris ili ərəfəsində universitetin SAT mərkəzinə mindən artıq müraciət daxil olub. Eyni zamanda bu il müxtəlif xarici ölkələrdən 700-dən artıq əcnəbi tələbə təhsilini davam etdirmək üçün Naxçıvan Dövlət Universitetinə müraciət edib və onlardan 250-si qəbul olunub. Hazırda ali təhsil ocağında 19 ölkədən 1903 əcnəbi tələbə təhsilini davam etdirir.

Sentyabrın 15-də – Bilik Günündə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Naxçıvan Dövlət Universitetində olub, keçirilən tədbirlərdə iştirak edib. Səlahiyyətli nümayəndə əvvəlcə Tibb fakültəsinin fəaliyyəti ilə maraqlanıb, fakültədəki müxtəlif kabinə və laboratoriyalar ilə tanış olub. Səlahiyyətli nümayəndə praktiki tədris prosesini izləyib, yeni tədris ili münasibətilə təbriklərini çatdırıb, tələbələrin peşəkar tibbi kadrlar kimi formalaşacaqlarına əminliyini bildirib, tədrisdə uğurlar arzulayıb.

Sonra Tibb fakültəsinin birinci kurs tələbələri ilə Bilik Günü münasibətilə görüş keçirilib. Görüşdə çıxış edən səlahiyyətli nümayəndə Fuad Nəcəfli tələbə adını qazanan gəncləri təbrik edib, kollektivə uğurlu tədris ili arzulayıb. Qeyd edib ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası nəticəsində muxtar respublikada genişmiqyaslı infrastruktur quruculuğu layihələri reallaşdırılacaq, elm və təhsil müəssisələri tikilib istifadəyə veriləcək. Çünki bu gün dövlətimiz təhsilin inkişafını birbaşa sosial öhdəlik kimi qarşıya məqsəd qoyub. Qısa zamanda sözügedən Dövlət Proqramı əsasında yeni təhsil infrastrukturları reallaşdırılacaq. Bunlardan biri də Naxçıvan Dövlət Universitetinin ikinci tədris kampusu olacaq. Universitetin Tibb fakültəsinə aid olacaq yeni kampus şəhərin ən gözəl guşələrindən birində inşa olunacaq və tibbə dair bütün müasir təchizatla təmin ediləcək. Həmçinin universitet ərazisindəki tədris korpusları yenilənəcək. Qabaqcıl universitetlərlə ikili diplom layihələrinin reallaşdırılmasını uğurlu addım kimi dəyərləndirən səlahiyyətli nümayəndə bildirib ki, dünya universitetləri və digər beynəlxalq qurumlarla bu cür faydalı əməkdaşlıqlar qısa müddətdə Naxçıvan Dövlət Universitetini dünyanın qabaqcıl ali təhsil ocaqlarından birinə çevirəcək. Bu əlaqələrin qurulmasında tələbələrin xarici dil biliklərinə yiyələnməsi müasir dövrün tələbinə uyğun olaraq mütləq xarakter daşıyır. Buna görə də bu ildən ingilisdilli Tibb ixtisasının fəaliyyətə başlaması, eləcə də Universitetin Beynəlxalq Məktəbinin istifadəyə verilməsi yeni tədris ilinin mühüm yeniliklərindən biridir. Bütün bunlar beynəlxalq əməkdaşlıq əlaqələrini daha da genişləndirəcək, universitetin tədris imkanları Avropa, Amerika və dünyanın digər qabaqcıl təhsil sistemlərinə inteqrasiya ediləcək, tələbə-tədqiqatçılar üçün xarici ədəbiyyatlar daha əlçatan olacaq. Bir sözlə, digər istiqamətlərlə yanaşı, davamlı inkişaf yolunda olan Tibb ixtisası üzrə də hərtərəfli biliyə malik peşəkar kadrlar yetişəcək. Fuad Nəcəfli tələbələrə yaradılan və yaradılacaq bu imkanlardan maksimum yararlanmağı tövsiyə edib və əminliyini bildirib ki, onlar gələcəyin peşəkar kadrları kimi ölkə və muxtar respublikanın səhiyyə ocaqlarında fəaliyyətlərini davam etdirəcəklər.

Görüşün ardınca Beynəlxalq münasibətlər fakültəsində "2023 Enactus Azərbaycan Milli Yarışı"nın qalibi olan və ölkəmizi Niderland Krallığının Utrext şəhərində keçiriləcək dünya çempionatında təmsil edəcək universitetin ENACTUS komandası ilə görüş olub. Səlahiyyətli nümayəndə bu uğura görə kollektivi təbrik edib, gənclərimizlə fəxr etdiyini bildirib, uğurlar arzu edib. Ardınca səlahiyyətli nümayəndə universitet ərazisində Texnoparkın inşaat işləri ilə maraqlanıb. Məlumat verilib ki, tikintisi davam etdirilən texnoparkda energetika, gülkarlıq, tingçilik, kənd təsərrüfatı və aqronomluq, coğrafiya, üzümçülük, meliorasiya, arıçılıq sahələri, tədris otaqları və sərgi-biopark, texnopark binaları, eləcə də nəbatat bağı fəaliyyət göstərəcək. Səlahiyyətli nümayəndə Fuad Nəcəfli universitetin Pedaqoji fakültəsində yaradılan Texnologiya Mərkəzində də olub, sərgilənən əl işləri ilə tanış olub. Səlahiyyətli nümayəndəyə Ümummilli Lider Heydər Əliyevin muncuqla işlənmiş portreti hədiyyə edilib.

Ardı 4-cü səhifədə

### Türkiyəni Türk dünyası ilə birləşdirən Naxçıvanda iki böyük türk lideri

Ötən ayın ən mühüm ictimai-siyasi hadisəsi isə çağdaş dövrümüzdə bütün türk dünyasının birlik və həmrəylik amalını reallaşdıran, dünyada yetərli güc və nüfuz sahibinə çevrilən, sarsılmaz mütəfiqliyi ilə tarixdə yeganə olan iki qardaş ölkənin dövlət başçılarının Türk qapısı Naxçıvanda, qədim və Ulu diyarda görüşməsi oldu. Bu hadisə tük birliyinin ideya bayraqdarı Ümummilli Lider Heydər Əliyevin 100 illik yubiley ilinə, türk dövlətçilik tarixinin yenilməzlik və intibah mərhələsi olan Türkiyə Cümhuriyyətinin 100 illik yubileyi ərəfəsinə, türkçülüyün birlik rəmzi sayılan, türk siyasi tarixində mühüm bir mərhələnin başlanğıcı olan Naxçıvanın muxtariyyət tarixinin 100 illiyini qeyd etməyə hazırlaşdığımız bir tarixə təsadüf etməsi ilə əlamətdar idi.

Sentyabrın 25-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasına rəsmi səfərə gəlib. Sentyabrın 25-də Naxçıvanda rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub. Sentyabrın 25-də İğdır-Naxçıvan qaz kəmərinin təməlinin qoyulması mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mərasimdə iştirak ediblər.

Dövlət başçıları İğdır-Naxçıvan qaz kəmərinin təməlini qoydular. Qeyd edək ki, İğdır-Naxçıvan qaz kəməri Naxçıvanın qaz təchizatının şaxələndirilməsinə imkan verməklə onun bir mənbədən asılılığını aradan qaldırmış olacaq. 2020-ci il dekabrın 15-də Ankarada Azərbaycan və Türkiyə arasında İğdır-Naxçıvan qaz boru kəmərinin tikintisinə dair anlaşma memorandumu imzalanıb. Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2022-ci il 10 fevral tarixli Sərəncamına əsasən isə İğdır-Naxçıvan qaz boru kəmərinin tikintisi üçün dövlət büdcəsindən vəsait ayrılıb. Layihə bu il iyunun 5-də qəbul edilən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın prioritet layihələri sırasında yer alıb.

Boru kəməri gündə 2 milyon kubmetr, ildə isə 730 milyon kubmetr qaz ötürmək qabiliyyətinə malikdir ki, bununla da Naxçıvanın qaza tələbatı tamamilə ödəniləcək. Gələcəkdə boru kəmərinin ötürücülük qabiliyyətini iki dəfədən çox artırmaq mümkündür. Sentyabrın 25-də İğdır-Naxçıvan qaz kəmərinin təməlinin qoyulması mərasimindən sonra Azərbaycan-Türkiyə sənədləri imzalanıb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Qars-Naxçıvan dəmir yolu layihəsinə dair Niyyət Protokolu"nu imzalayıblar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Türkiyə Respublikasının Kahramanmaraş vilayətində yaşayış binaları, ibtidai məktəb, uşaq bağçası və mədəniyyət mərkəzinin tikilməsi haqqında Əməkdaşlıq Sazişi", "Azərbaycan Respublikasında və Türkiyə Respublikasında bərpaolunan enerji mənbələrindən istehsal olunan elektrik enerjisinin ötürülməsi sahəsində Azərbaycan Respublikasının Energetika Nazirliyi və Türkiyə Respublikasının Energetika və Təbii Sərvətlər Nazirliyi arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Sonra prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər. Dövlətimizin başçısı bəyanatla çıxışında səfər zamanı imzalanmış sənədləri Türkiyə-Azərbaycan əlaqələrinin inkişafına xidmət baxımından yüksək qiymətləndirib, İğdır-Naxçıvan qaz kəmərinin çəkilişinin qardaşlıq münasibətlərimizin tarixində önəmli hadisə olduğunu və əlaqələrə yeni təkan verəcəyini, Naxçıvanın enerji təhlükəsizliyini daha böyük ölçüdə təmin edəcəyini vurğulayıb.

Prezident cənab İlham Əliyev bəyanatda vurğulayıb: ***"Naxçıvan Azərbaycanın qədim diyarıdır. Əfsuslar olsun ki, 1920-ci ildə sovet hakimiyyəti tərəfindən Qərbi Zəngəzur Azərbaycandan ayrılmışdır və beləliklə, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında coğrafi bağlantı kəsilmişdir. Ermənistan Azərbaycana qarşı işğalçılıq siyasətini aparmağa başlayanda Naxçıvana qarşı da onların ərazi iddiaları var idi. Burada da şiddətli döyüşlər gedirdi və məhz o vaxt Azərbaycanın böyük oğlu Heydər Əliyevin rəhbərliyi ilə, – o zaman O, Naxçıvanın başçısı idi, – Naxçıvan düşməni yerinə oturtdu və öz ərazisini qoruya bildi. Ancaq o vaxt Naxçıvanın enerji təminatı Azərbaycanın əsas hissəsindən olduğu üçün Ermənistan bütün elektrik və qaz xətlərini kəsmişdi və Naxçıvanı faktiki olaraq mühasirədə idi. İşıq yox, qaz yox, qışlar da çox soyuq keçir və 15 il Naxçıvan qazsız yaşamışdır.***

***Ancaq 2005-ci ildə İran İslam Respublikası ilə imzalanmış anlaşmaya görə, mübadilə yolu ilə İrandan Naxçıvana qazın verilməsi təmin edilmişdir. İğdır-Naxçıvan qaz kəmərinin çəkilişi isə ikinci xətt vasitəsilə Naxçıvana təbii qazın verilməsinə şərait yaradacaq. Naxçıvanın qazı, nefti olmasa da, günəşi var və Naxçıvanda günəş elektrik stansiyalarının inşası ilə bağlı bizim böyük planlarımız var. Bu planlar gerçəkləşərsə, Naxçıvan "yaşıl enerji zonası"na çevrilə bilər. Çünki burada həm günəş, həm külək, eyni zamanda su elektrik stansiyalarının inşası üçün böyük potensial var və gələcəkdə Naxçıvandan Türkiyəyə ən azı 1000 meqavat həcmində "yaşıl enerji" ixracı də mümkün olacaqdır".***

Dövlətimizin başçısı həyata keçirilən antiterror tədbirləri nəticəsində Azərbaycan ərazisində qanunsuz məskunlaşmış Ermənistan ordusunun təslim olması nəticəsində Azərbaycanın öz dövlət suverenliyini tam təmin etdiyini vurğulayıb, Türkiyə Prezidentinə Amerikada, Nyu-Yorkda, Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasında Azərbaycan dövlətinin maraqlarını ifadə edən, beynəlxalq hüquqa əsaslanmış bəyanatlar verdiyinə, bütün Türkiyə xalqının və dövlətinin hər zamankı kimi Azərbaycanın yanında olmasına görə təşəkkürlərini çatdırıb. Prezident cənab İlham Əliyev Şuşa Bəyannaməsi – müttəfiqlik bəyannaməsinin iki qardaş ölkə arasındakı münasibətləri yeni müstəviyə qaldırdığını diqqətə çatdırıb.

Türkiyədən Azərbaycanın parçası olan Naxçıvana qaz kəmərinin, Azərbaycanı Naxçıvan və Türkiyə ilə birləşdirən dəmir yolunun inşalarının uğurla getdiyini vurğulayan dövlətimizin başçısı demişdir: ***"Yeni bütün bu tarixi layihələr bir daha onu göstərir ki, bizim dövlətlərimiz nə qədər bir-birinə bağlıdır, bir-birinə yaxındır. Biz bir-birimizə dəstək verməklə, eyni zamanda regional məsələləri də düz istiqamətə yönəldirik. Yeni bizim müştərək maraqlarımız ondan ibarətdir ki, bölgədə sülh olsun, əmin-amanlıq olsun, müharibələr olmasın, ölkələrin ərazi bütövlüyü təmin edilsin. Azərbaycana göstərdiyiniz dəstək həm İkinci Qarabağ müharibəsi zamanı, həm ondan əvvəl, həm də ondan sonra məhz bu məqsədə çatmaq üçün önəmli amildir".***

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bəyanatında Türkiyəni Türk dünyası ilə birləşdirən Naxçıvanda birlikdə olmaqdan böyük məmnunluq duyduğunu, 2008-ci ildəki son səfərindən etibarən Naxçıvanın əldə etdiyi inkişafı qürurla müşahidə etdiyini bildirib. Qardaş ölkənin başçısı Naxçıvanın tarixboyu daşıdığı strateji əhəmiyyəti ilə Azərbaycanla əlaqələrimizi xüsusi yerə sahib olduğunu xatırladaraq deyib: *"Naxçıvan bu gün də iqtisadiyyat, nəqliyyat və enerji xətləri baxımından böyük potensiala malikdir. Regional nəqliyyat xətlərinin yaradılması ilə birlikdə bu potensiali tam mənasında həyata keçirmək imkanına sahib olacağıq. Xəzər dənizindən keçən Beynəlxalq Şərq-Qərb Orta Dəhlizin əhəmiyyəti koronavirus pandemiyası və bölgəmizdə yaşanan müharibələr nəticəsində daha yaxşı dərk edilmişdir. Bu baxımdan bir qədər əvvəl təməlini qoyduğumuz İğdır-Naxçıvan qaz kəməri layihəsi Azərbaycan ilə enerji sahəsində ortaqlığımızı daha da dərinləşdirəcəyi kimi, Avropanın enerji təhlükəsizliyinə də töhfə verəcək. Qars-Naxçıvan dəmir yolu layihəsi ilə yanaşı, yaşayış binaları və elektrik enerjisi ilə bağlı müqavilələr bir az əvvəl imzalandı. Beləliklə, nəqliyyat, logistika və enerji sahələrindəki əlaqələrimizi inkişaf etdirməklə bağlı iradəmizi bir daha ortaya qoyduq".*

Sentyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Naxçıvan Bərpaistehsalat hərbi kompleksinin açılışında iştirak ediblər. Rəmzi açılışı bildirən lent kəsildikən sonra dövlət başçılarına məlumat verilib ki, hərbi kompleks müxtəlif növ hərbi texnika və avadanlıqların təmiri və test edilməsini həyata keçirmək imkanına malikdir. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Respublikasına rəsmi səfəri sentyabrın 25-də başa çatıb.

*Muxtar respublikanın sentyabr ayındakı ümumi ictimai-siyasi mənzərəsi bir daha göstərir ki, Azərbaycanın bu qədim diyarı, ayrılmaz tərkib hissəsi xalqımızın Ümummilli Lideri Heydər Əliyevin müqəddəs əmanəti kimi qorunub yaşadılır, inkişaf etdirilir. Məhz Ulu Öndərin xidmətləri sayəsində sosial-iqtisadi inkişafının möhkəm bünövrəsi qoyulmuş Naxçıvan bu gün daha əzmkarlıqla, uzaq hədəflərə hesablanmış şəkildə inkişaf etdirilir. Prezident cənab İlham Əliyevin Heydər Əliyev siyasətinə sadiqliyinin bir bariz nümunəsi də Naxçıvanın Ümummilli Lider Heydər Əliyevin görmək istədiyi inkişaf səviyyəsinə çatmasıdır. Bu diyar qədimliklə müasirliyin vəhdət çalarlarını özündə yaşatmaqla sabaha böyük inam və gələcəyə ümidlə yaşayır, bu əzm və səylə gələcəyə qədəm qoyur.*

**Mehriban SULTAN**

***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

### "Siyasi irsə və dövlətçiliyə iyirmi illik sədaqət yolu" adlı tədbir olub



uğur, böyük siyasi irsə sədaqətlə fəth olunan yüksək zirvə idi.

Naxçıvan Dövlət Universitetinin sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Arzu Abdullayev çıxışında bildirib ki, Azərbaycan Respublikası Prezidentinin həyata keçirdiyi uzunmüddətli iqtisadi inkişaf strategiyası ölkənin regionlarının davamlı və tarazlı inkişafının təmin olunması, təbii resurslardan səmərəli istifadə və ətraf mühitin etibarlı mühafizəsinə imkan verən əlverişli mühit yaratmaq, yüksək standartlara cavab verən sosial rifah iqtisadiyyatının yaxşılaşdırılması məqsədi daşıyır.



*"Şərq qapısı" qəzeti, Naxçıvan Dövlət Universiteti və Naxçıvan Mətbuat Şurasının birgə təşkilatçılığı ilə keçirilən tədbirdən əvvəl iştirakçılar Ümummilli Liderin abidəsi önünə gül dəstələri qoyub, əziz xatirəsini dərin ehtiramla yad ediblər.*

Heydər Əliyev Muzeyində keçirilən tədbirdə giriş sözü ilə çıxış edən muzeyin direktoru Ramil Orucəliyev bildirib ki, doğma Vətənimizdə, o cümlədən qədim diyarımızda Ümummilli Liderin siyasi kursu layiqincə davam etdirilir. Ötən illər ərzində Heydər Əliyev Muzeyi Ümummilli Liderimizin həyat və fəaliyyət fəlsəfəsinin, elmi-nəzəri irsinin, Azərbaycançılıq ideologiyasının öyrənilməsi, təbliği və gələcək nəsillərə çatdırılması kimi şərəfli missiyanı layiqincə yerinə yetirib.

"Şərq qapısı" qəzetinin baş redaktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti, filologiya üzrə fəlsəfə doktoru Mehriban Sultanova vurğulayıb ki, zamanın haqqa səssiz qalan gedişini ədalət naminə haqq yoluna dəyişən müdrik lider və yenilməz sərkərdə cənab İlham Əliyevin döyüş meydanında, siyasi səhnədə, xarici və yerli mətbuatda Azərbaycana qazandırdığı möhtəşəm qələbə xalqa ən dəyərli ərməğan oldu. Müzəffər Ali Baş Komandan Azərbaycanın 27 illik Qarabağ savaşına səssiz qalan BMT Təhlükəsizlik Şurasının kağız üzərində qalmış qətnamələrini özü icra etdi. Müharibə dövründə dövlətimizin başçısı cənab İlham Əliyev xarici kütləvi informasiya vasitələrinə 30-dan çox müsahibə verdi ki, bu da münaqişə ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasında mayak rolunu oynadı. Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpa edilməsi, ölkəmizin dünya siyasət tarixinə qalib dövlət kimi düşməsi dövlət başçımızın iyirmi illik siyasi fəaliyyəti nəticəsində ikiyüzillik dövlətçilik tarixində qazanılan misilgörünməmiş

Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov qeyd edib ki, Qarabağın tacı, döyünən ürəyi olan Şuşanın noyabrın 8-də işğaldan azad edilməsi tariximizə şanlı Zəfər Günü kimi yazıldı. Bundan iki gün sonra isə işğalçı Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur oldu. Ötən iyirmi ilə nəzər salsaq görərik ki, dövlətimizin başçısı xalqa verdiyi bütün vədləri yerinə yetirib, bütün sahələrdə sürətli inkişafa nail olunub.

Digər çıxış edənlər, "Şərq qapısı" qəzetinin məsul katibi Muxtar Məmmədov və qəzetin əməkdaşı Aysel Nuriyeva qeyd ediblər ki, Heydər Əliyev şəxsiyyəti Azərbaycanın müasir dövlətçilik tarixinin parlaq simasıdır. Xalqımızın yaddaşında silinməz izlər buraxan Ümummilli Lider Azərbaycan dövlətinin xilaskarı, memarı və qurucusudur. Heydər Əliyevin yaratdığı müstəqil Azərbaycanı Prezident cənab İlham Əliyev dünyada güclü və nüfuzlu dövlətə çevirib.

Tədbirin davamında "İlham"sənədli filmi nümayiş olunub, "Şərq qapısı"nda silsilə şəklində dərc olunan, cənab İlham Əliyevin 20 illik prezidentlik fəaliyyətini əks etdirən ictimai-siyasi, publisistik materiallardan ibarət sərgiyə baxış olub, sərgi materialları muzeyə hədiyyə edilib. Sonda muzey ekspozisiyası ilə tanışlıq olub.

**Fariz ƏHMƏDOV**

### SİF-in müvəkkil kredit təşkilatları ilə görüş keçirilib



SİF-in müvəkkil kredit təşkilatları vasitəsilə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən 20 sahibkara, ümumilikdə, 1,4 milyon manata yaxın güzəştli kredit verilib. Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondu və Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi Fondun 5 müvəkkil kredit təşkilatı ilə görüş keçirib. Görüşlərin keçirilməsində əsas məqsəd Naxçıvanda bizneslərin maliyyə resurslarına əlçatanlığının artırılması istiqamətində dövlət və özəl sektor əməkdaşlığını gücləndirməkdir.

"Kapital Bank", "Azərbaycan Beynəlxalq Bankı", "Bank Respublika", "AccessBank" və "Aqrarkredit"in rəhbərlərinin iştirak etdiyi görüşlərdə muxtar respublikanın biznes mühiti və burada fəaliyyət göstərən sahibkarların maliyyə resurslarına əlçatanlığı müzakirə edilib. Bildirilib ki, SİF-in müvəkkil kredit təşkilatları vasitəsilə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən 20 sahibkara, ümumilikdə, 1,4 milyon manata yaxın güzəştli kredit verilib.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Culfa rayonunun Saltaq kəndində yaşamış Quliyev Məmməd Ocaqqulu oğlunun adına 2006-cı ildə verilmiş JN-$280^{A}$ inventar nömrəli, 10605018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Novruzova Nərminə Ərzaman qızının adına Dədə Qorqud küçəsi $27^{B}$ ünvanında yerləşən fərdi yaşayış evinə məxsus 2260 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Fərəcov Tofiq Əli oğlunun adına olan JN-224 nömrəli torpağın mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Əhədli Abbas Qaçaxan oğlunun adına olan A-018188 nömrəli hərbi bilet itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 631